24 Jahrgang

Monatlich von Politik- und Kultur

اوز گله جه يينى تعيين ائتمك آذربايجان خالقي‌نين وازگئچيلمه ز حاقي‌ديرا

# آنا ديلي

اۆوجو بورجو

No. 291-292 ۲۴ ـ نجي ايل

August-Oktober 2008

بۆيوک چيلله(دئي)۱۳۸۷

۳۰ دۆل آردي(آذه ر)۱۳۸۷

ANA DILI Südazerbaidschanische Exilzeitung

BEINHALTET DIE WÜNSCHE DER AZERBAIDJANISCHEN BEVÖLKERUNG

SIE HAT KEINE BEZIEHUNG ZU PARTEIEN UND VEREINEN



Ursprunglicher Grenzverlauf Azerbaijan

## Ey vay müsəlmanları öldürürlər!!!
## ائي واي مسلمانلاري اؤلدورورلر!!

Tehran rejimi ilə Türkiyeli Ak firqə mənsubları bir ağızdan danışırlar Ey vay müsəlmanları öldürürlər!!!

Israilin Ğəzə əyalətinə əsgəri hucumu bütün dünyada etirazlara səbəb olmuşdur. təbii olaraq her ne adla olursa olsun günahsız insanların öldürülməsi qəbul edilməz bir hərəkətdir.

Amma danılmıyacaq bir həqiqətdə vardır. oda budurki, bugün Ğəzə əhalisi Dünya terorizminin sərkərdəsi olan Tehran rejiminin kötəyini yeyir. çünki bu bölgə də hakmiyti əlinə keçirən Hmas Tehran rejiminin bir özəyidir(şöbəsidir). bu ağalar tekcə madi və idolojik baxımından yox, silah və srusat baxımındanda təhran rejiminə bağlıdırlar. Bu ağalarda Tehranda oturan ərbabları kimi Fələstin xalqının dini inancılarından öz siyasi məqsədləri üçün yararlanırlar. buna görədə bu qətliam ana günahkarı Tehranda oturan Tehran Terorist rejimi və onun quyruğu olan Hamas başçılarıdır.

Isail tərəfinə gəldikdə təssüflə bu ölkədə də haman qədər dini fondamentalistler az deyildir.. neçə min il qabaq cüyüdlərin dini kitablarında Felestinlilərin topraqlarının adı geçdiyinə görə bu topraqlarin cüyüdlərə ayid olduğunu irəli sürüb,silah gücünə mənimsəyənlər, yaxud savaş meydanında Israil Tnkının üstündə dini kitabi əlinə alib tapanlardır(ibadət edönlər) . elə Fələstin tərəfində olanlar qədər dini fondamentalistlerdirler.

Bu arada bizim diqətimizi çəkən Tehrandaki Teroristlərin« Timsah göz yaşı» tökmələridir. Buna paralel Türkiyədə Hakimiyyəti ələ keçirən Ak firqəyə mənsub olanları Istanbul və Ankara küçələrində tökmələri, Atatürkün irs qoyduğu sekuler Türkiyə parlementosunda dövlət başçısı Erdoğanın mən muslmanam,həryerdə muslman ölürsə mənidə ilgilədirər kimi bağırtıları ,və beləliklə Tehran teroristlərilə bir ağızdan danışmaları

آردي ۲ـ نجي ياپراقدا(صحيفه ده)

# آذربايجانيميزين بيرليک وه همراي‌ليک گونو
## Azərbaycanımızın birlik və həmrəylik günü

آذربايجانليلارين بيرليک وه همراي‌ليک گونو آذربايجانين کئچن بۆ ۱۸۰ ايلده اۆنۆن اوره‌ک آغريلاري‌نين آنا سببي‌نی گؤسترن بير حرکتدير. آذربايجان ميللتي وه وطني يادلار الي ايله بۆلونمه‌ک فارس وه رۆس مستملکه‌سينده هر چئشيد باسقي تترۆر ، شيکنجه وه دۆسداقلارا معرۆض قالسادا بير بوتۆو ميللت اۆلدۆغۆنۆ اۆنۆدماميشدير. ميللتيميز ۳۱ دئسامبر ۱۹۸۹ نجۆ ايل بۆنۆ عملده‌ده گؤسترميشدير. آورۆپادا بئرلين دۆواري‌نين ييخيلماسي ايله سۆوييئت سيستمي‌نينده داغيلماسي قالان اسير ميللتلرده‌ده آزادليق رۆحۆنۆ جانلانديرميشدير. بيزيم ميللتيميزده سرحد حرکاتي ايله اۆز ايستەيينی ديله گتيرميشدير. ائله بۆنۆن نتيجه‌سينده دمير دۆوار يۆخ اۆلمۆش، باجي ـ قارداشلاريميز قارشيليقلي اۆلاراق وطنلري‌نين اۆ بيري تايينی گؤرمک ايمکاني قازانميشلار.. خصۆصيله قۆزئي آذه ربايجانيميز اۆز مستقيللي‌يينی تيکرار الده ائتمکله پارچالانميش عائله‌لر ۷۰ ايلدن سۆنرا اۆز قۆهۆم وه طايفالاريني آختاريب تاپما اۆيمکانينی الده ائديب ، ميلتلرجه سۆيداشيميز قارشيليقلي اۆلاراق اۆزلرينه حيات يۆلداشي سئچميشلر. مستملکه‌چي تئهران رئژيمی بۆنۆن قارشي‌سيني آلماغا چاليشسادا طبيعی اۆلاراق باشاريلي اۆلا بيلمه‌ميشدير. چۆنکی بۆ بير ميللت آراسيندا چۆخ طبيعی بير اۆلقۆدۆر. گۆنئي آذربايجانيميزدا گئده‌ن ميللي قۆرتۆلۆش وه آزادليق حرکاتيميز نهايي بيرلشمه‌ميزين جارچيسي‌دير. اۆ گون چۆخدا اۆزاقدا دئييلدير.



## اۆرتا دۆغۆنۆن چيباني
## Ortadoğunun çibanı

دئسامبر آيي نين ۲۵ ده ن اعتيبارن ايسراعيل فلسطين نين غزه بۆلومونو گئجه ـ گوندوز بۆمبالاماقداديز. بۆ گونه قده ر ۱۳۵۰ اۆلو وه ۵۵۰۰ نفر يارالي واردير. بۆ اۆلن وه يارالي‌لارين اکثريتي سيراوی وطنداشلاردير. اۆلن وه يارالي‌لارين ايچينده اۆشاقلار قادين وه ياشلي‌لار باشدا گليرلر. بۆنۆ خاطيرلاتماق بئرينده اۆلارکی غزه اياليتينده بير ميليۆن ياريم فلسطينلي ياشاماقداديز. آيلاردير سۆ ، قاز ، وه چۆق رکدن محرۆم ائديلميشلر. آورۆپادا دۆوارلار ييخيلارکن، ايسراعيلي‌لر اۆزلريله فلسطينلي‌لر آراسيندا ۸ـ ۱۰ مئتره‌ليک بئتۆن دۆوارلار چکميشلر. بۆنۆنلادا فلسطينلي‌لرين

آردي ۳ـ نجي صحيفه‌ده

## تئهران رئژيمی وه آورۆپا اۆلکه لری
## Tehran rejimi və Avrupa ölkələri

هرکسه بللی اۆلدۆغۆ کيمی بشريتين اوز قاراسي ، دونيا تئرۆريزمی نين هر جهتده ن ايدۆلۆژيک وه مادي مرکز وه قايناغي تئهرانديز. اۆتکجه اۆرتا دۆغۆ اوچون يۆخ ، بوتون دونيا اوچون تهلوکه سايلير. تاسوفله غرب اۆلکه‌لری ، اۆ جوملەدن آلمان وه بۆ اۆلکه‌نين سياسی وه ايقتيصادی دايره‌لری ، اۆز چيخارلاري خاطيرينه بۆ جينايتکار رئژيين تاريخين کولويونه توکولمه‌سيله راضيلاشميرلار. اۆزلرينی اينسان حاقلاري نين مۆدافيعه‌چي گؤسترمه‌يه چاليشان بۆ اۆلکه‌لر ايران دئيله ن ميللتلر دۆسداغيندا ياشايان ميللتلرين آجيلاريندان، اينساني وه مدنی حاقلاري‌نين

آردي ۲ـ نجي ياپراقدا(صحيفه ده )

# Yaşasin 21 Azərin 63.cü ildönümü!

# Es Lebe der Jahrestag der Gründung der Süd-Azerbaidschanisch e Republik(1945-1946)

Die Selbstbestimmung ist unverzichtbares Recht des SÜD -azerbaidjanischen Volkes!